# Vergilər naziri Qəbələdə vətəndaşlarla görüşüb



İyulun 19-da vergilər naziri Mikayıl Cabbarov Qəbələdə 10 saylı Ərazi Vergilər İdarəsinin inzibati binasında vətəndaşları qəbul edib.

Qəbulda Qəbələ, İsmayıllı, Oğuz, Zaqatala, Balakən və Qax rayonlarından olan sakinlər iştirak ediblər. Qəbulda vətəndaşlar, əsasən, yaranmış vergi borcları, vergi orqanlarında işlə təminat, vergi uçotunun aparılması və elektron qaimələrin tətbiqi, kənd təsərrüfatı məhsullarının ixracı, vergi qanunvericiliyinin və inzibatçılığının tətbiqi sahəsində qarşılaşdıqları məsələlərlə əlaqədar müraciət ediblər.

Vətəndaşların müraciətləri dinlənilib və nazirliyin struktur bölmələrinə aidiyyatı tapşırıqlar verilib.

**"Qəbələ"**

# Pakistanın nümayəndə heyəti Qəbələ rayonunda səfərdə olub

***İyunun 13-də Pakistanın Gilgit-Baltistan əyalətinin Baş naziri Hafiz-Ur-Rəhmanın rəhbərlik etdiyi nümayəndə heyəti Qəbələdə səfərdə olub.***

***Rayonla tanışlıq məqsədi daşıyan səfərdə qonaqları "Qafqaz River-Side" Otelində rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov qarşılayıb.***

Görüş zamanı nümayəndə heyətinə rayonun tarixi, iqtisadiyyatı, sosial və mədəni həyatı barədə ətraflı məlumat verən Abil Ağasəfov bildirib ki, Qəbələdə iqtisadiyyatın əsasını təşkil edən kənd təsərrüfatının inkişafı istiqamətində son illərdə həyata keçirilən genişmiqyaslı tədbirlər sayəsində müsbət nəticələr əldə olunub.

Regionun ecazkar gözəlliyi və qonaqpərvərliyi haqqında söhbət açan RİH başçısının birinci müavini diqqətə çatdırıb ki, bu gün Qəbələ rayonunda turizm infrastrukturu başlıca və mühüm sahələrdən biri hesab olunur. Burada yaradılan gözəl şəraitin nəticəsidir ki, bölgəyə gələn turistlərin sayı ildən-ilə nəzərə çarpacaq dərəcədə artır.

Qəbələyə ilk səfəri olduğunu qeyd edən Pakistan İslam Respublikasının rəsmisi rayonumuzun onda yüksək təəssürat yaratdığını vurğulayıb.



Həmçinin qonaq Pakistanın Gilgit-Baltistan əyalətinin tarixi, mədəni həyatı və turizm potensialı haqqında geniş məlumat verib. Hafiz-Ur- Rəhman Azərbaycanla bütün sahələrdə əlaqələrin daha da inkişafında maraqlı olduqlarını diqqətə çatdırıb.

Görüşdə ümumi maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Hafiz-Ur-Rəhmanın rəhbərlik etdiyi nümayəndə heyəti rayonun turizm infrastrukturu, tarixi yerləri, idman-sağlamlıq kompleksləri və sənaye müəssisələri ilə yaxından tanış olub.

**"Qəbələ"**

**Səhrab Umuyev (foto).**

# Geniş müşavirə keçirilmişdir



İyulun16-da Qəbələ Rayon Prokurorluğunda Azərbaycan Respublikası Baş Prokurorluğu Kollegiyasının üzvü, Kadrlar idarəsinin rəisi Nazim Rəcəbovun sədrliyi, Beynəlxalq əlaqələr idarəsinin rəisi Erkin Əlixanovun və Baş prokurorun köməkçisi Zaur Axundzadənin iştirakı ilə Mingəçevir şəhər, Yevlax, Ağdaş,



Ucar, Zaqatala, Balakən, Oğuz, Qax, Qəbələ və Şəki rayon prokurorları tərəfindən 2019-cu ilin birinci yarısında qanunların icra və tətbiq olunmasına nəzarət, cinayət mühakimə icraatında insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülmüş işlərin vəziyyətinin müzakirəsinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilmişdir.

Müşavirədə şəhər və rayon prokurorları 2019-cu ilin ötən dövrü ərzində görülmüş işlər barədə hesabat məruzəsi ilə çıxış etmiş, mövcud olan çatışmazlıqların aradan qaldırılması və fəaliyyətin səmərəliliyinin artırılması istiqamətində əməli təkliflər irəli sürmüşlər.

**"Qəbələ"**

**Səhrab Umuyev (foto).**

# Arxeoloqlar arasında əməkdaşlıq genişlənir

***Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu, Seul Milli Universiteti və SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası İctimai Birliyi arasında arxeologiya sahəsində əməkdaşlıq üzrə anlaşma memorandumu imzalanıb.***

***AZƏRTAC-ın verdiyi xəbərə görə imzalanma mərasimində Arxeologiya və Etnoqrafiya İnstitutunun və SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası İctimai Birliyinin əməkdaşları, həmçinin Koreya Respublikasının Azərbaycandakı səfirliyinin müşaviri cənab Li Jae-vung və Seul Milli Universitetinin professoru Kim Jong-İl iştirak ediblər.***

Tədbirdə SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası İctimai Birliyinin sədri Ruhəngiz Heydərova deyib ki, 10 ildən çox bir müddətdə Azərbaycan və Koreya arxeoloqları Qəbələ bölgəsində müxtəlif tarixi dövrlərə aid möhtəşəm arxeoloji abidələrdə birgə tədqiqat aparırlar. Bu tədqiqatlara SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası təmənnasız dəstək göstərir. Əvvəllər yalnız 5 illik birgə fəaliyyət və yardım planı tərtib olunurdu. Lakin elmi araşdırmalar 10 ildən yuxarı bir müddəti əhatə etdiyindən, qarşılıqlı məsləhətləşmələrdən sonra qarşıdakı illərdə əməkdaşlıq üçün üçtərəfli bir anlaşma memorandumunun imzalanması barədə razılığa gəldik.

Ruhəngiz Heydərova aparılan tədqiqatlarda azərbaycanlı arxeoloqlar - tarix üzrə elmlər doktoru Qafar Cəbiyevin, tarix üzrə fəlsəfə doktoru Ceyhun Eminlinin, mərhum professor İlyas Babayevin böyük xidmətlərindən söz açıb. Xüsusi olaraq Seul Milli Universitetinin professoru Kim Jong-İlin və onun rəhbərliyi ilə koreyalı tələbələrin apardığı tədqiqatlar qeyd edilib. Ruhəngiz Heydərova uzun illər Azərbaycanda tədqiqat aparan Seul Milli Universitetinin professoru Kim Jong-İlə, Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşlarına, elmi tədqiqatlara dəstək göstərən aidiyyəti dövlət orqanlarına və ictimai təşkilatlara minnətdarlığını bildirib.

Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları - tarix üzrə elmlər doktoru Qafar Cəbiyev, tarix üzrə fəlsəfə doktorları Qoşqar Qoşqarlı, Ceyhun Eminli, Fərhad Quliyev, Akif Quliyev yeni tədqiqatlar, abidələrin konservasiyası, muzeyə çevrilməsi, birgə fəaliyyət istiqamətləri və iki ölkə arxeoloqlarının gələcək əməkdaşlığı barədə fikir və təkliflərini bildiriblər.

Daha sonra Azərbaycan-Koreya Beynəlxalq Arxeoloji tədqiqatlar sahəsində Arxeologiya və Etnoqrafiya İnstitutu, Seul Milli Universiteti və SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası İctimai Birliyi arasında müqavilə imzalanıb. Sənədi professor Maisə Rəhimova, biologiya üzrə fəlsəfə doktoru Ruhəngiz Heydərova və Seul Milli Universitetinin professoru Kim Jong-İl imzalayıblar.

# Sakinləri qəbul edib

İyulun 26-da Energetika nazirinin müavini Samir Vəliyev Qəbələ şəhərində rayon sakinlərini qəbul edib.

Nazirliyin aidiyyəti struktur bölmələrinin nümayəndələrinin iştirakı ilə keçirilmiş qəbulda hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib, qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digər müraciətlərin isə araşdırılması və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verilib. Energetika Nazirliyinin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

Ümumilikdə qəbullarda 30-dan çox vətəndaşın müraciətinə baxılıb.

**"Qəbələ"**

# Qəbələyə gəlmişlər




Mədəniyyətlərarası Gənclər Forumu: Dinlərarası dialoqdan fəaliyyətə doğru" adlı IX Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları Qəbələ rayonu ilə tanış olublar.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Böyük Britaniyada fəaliyyət göstərən Gənclər Arasında Ümumi Söz (ACWAY) beynəlxalq təşkilatı və Azərbaycan Respublikası Gənclər Fondunun birgə təşkilatçılığı ilə iyulun 15-də başlanan "Bakı

Tələbələr udilərin yaşadığı Nic qəsəbəsində yerləşən "Cotari" Alban-Udi Kilsəsini və "Azərbaycan-Udi Ocağı"nı ziyarət edib, "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksində olublar.

**"Qəbələ"**